# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 118

## QƏRAR

Bakı şəhəri, 10 mart 2016-cı il

# “Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar”ın təsdiq edilməsi barədə

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 29 may tarixli 1303-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 576 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin iş və istirahət rejiminə, iş şəraitinin xüsusiyyətlərinə dair Qaydalar” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaların şamil edildiyi avtonəqliyyat vasitələri 2016-cı il 1 iyul tarixindən rəqəmsal taxoqraflarla təchiz edilsin.

3. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, rəqəmsal taxoqrafların növlərinin müəyyənləşdirilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş “Standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi məqsədi ilə sınaqların keçirilməsi, standart nümunələrin və ya ölçmə vasitələrinin tipinin təsdiqi, bu barədə sertifikatın verilməsi, ölçmə vasitələrinin yoxlamalararası intervalının müəyyən edilməsi və dəyişdirilməsi qaydası, standart nümunələrin və ölçmə vasitələrinin tipini təsdiq edən nişanlara dair tələblər və həmin nişanların vurulma Qaydası”na uyğun rəqəmsal taxoqrafların ölçmə vasitəsi kimi tipinin təsdiq edilərək ölçmə vasitələrinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

4. “Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarının həyata keçirilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 dekabr tarixli 244 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N12, maddə 1125; 2014, N7, maddə 947) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin qərarla təsdiq edilmiş “Rəqəmsal taxoqraf kartlarının sisteminə dair Qayda”ya 1, 2, 3, 4 və 5 nömrəli əlavələr yeni redaksiyada təsdiq edilsin (əlavə olunur);

4.2. həmin qərarla təsdiq edilmiş “Taxoqrafların quraşdırılması, yoxlanması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən xidmət mərkəzlərinin (servis emalatxanalarının) fəaliyyəti Qaydaları”na 1 nömrəli əlavədə “Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi”nin” sözləri “Azərbaycan Respublikası qanunvericiliyinin” sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərara edilmiş əlavənin tam mətni ilə www.azerbaijan-news.az və cabmin.gov.az saytlarında tanış ola bilərsiniz.*